# Hafiz ƏLİMƏRDANLI-75



Hörmətli Hafiz Əlimərdanlı!

Sizi - istedadlı və vətənpərvər şairi, görkəmli alimi 75 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz 1 yanvar 1948-ci ildə İsmayıllı rayonunun Lahıc kəndində anadan olmusunuz. Valideynlərinizin işi ilə əlaqədar Bakı şəhərinə köçüb orada yaşamısınız. Orta təhsilinizi 25 saylı orta məktəbdə başlamış, 199 saylı orta məktəbdə davam etdirmisiniz.

Ədəbi fəaliyyətə ötən əsrin yetmişinci illərində başlamısınız, ilk qələm təcrübələriniz mətbuatda işıq üzü görmüşdür. Hələ məktəblilər arasında keçirilən "Doğma vətən, sən nə gözəlsən" respublika müsabiqəsinin qaliblərindən biri kimi tanınmağa başlamısınız. Orta məktəbi "Qızıl medal"la bitirərək parlaq bilik və savadınızı nümayiş etdirmisiniz.

S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə (indiki BDU) qəbul olaraq ali təhsil alıb, oranı 1971-ci ildə fərqlənmə ilə başa vurub kimyaçı - kimya müəllimi ixtisasına yiyələnmisiniz. Təyinatla elə Universitetin özündə işə başlayaraq AMEA Neft-Kimya Prosesləri İnstitutunda aspiranturaya qəbul olmusunuz. 1975-ci ildə namizədlik, 1992-ci ildə doktorluq dissertasiyasını müdafiə edərək kimya elmləri doktoru adını almısınız.

9 kitab, xüsusən də "Divan" müəllifisiniz. 400-dən çox elmi məqalə yazmış, 33 müəlliflik patenti almısınız. Faydalı elmi fəaliyyətiniz müddətində 4 elmlər doktoru, 12 kimya üzrə fəlsəfə doktoru hazırlamısınız.

Şeirlərinizin dili rəvan və sadədir, vətənpərvərlik və məhəbbət mövzularında qələmə aldığınız bədii nəzm nümunələri oxucuların ürəyinə yol tapıb. Yaradıcılığınız təkcə oxucuların deyil, mütəxəssislərin də diqqətini cəlb etmişdir. Nizami Cəfərov, Vaqif Yusifli, Nəriman Həsənzadə və başqa məşhur imzalar yaradıcılığınız haqqında fikir bildirmişlər. Qəzəl və qəsidələriniz, rübai və dübeytləriniz vaxtaşırı müxtəlif mətbu orqanlarda, ədəbi dərgilərdə dərc olunub. Şeirləriniz radio və televiziya efirindən səsləndirilib, almanaxlara daxil edilmişdir.

"Qızıl qələm" və müxtəlif media mükafatları laureatısınız.

Hörmətli Hafiz Əlimərdanlı!

Sizi bir daha 75 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 11 fevral.- S. 14.